AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 2 (1449), 28 yanvar - 3 fevral 2020-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## Nüfuzlu turnir 1 qızıl və 1 bürünc medalla yadda qaldı

Fransanın paytaxtı Parisdə keçirilən Karate 1 Premyer Liqa turnirinə yekun vurulub. Yarışda 92 ölkədən 703 karateçi mübarizə aparıb. Azərbaycanı kumite və kata yarışlarında 15 idmançı təmsil edib.

Gərgin mübarizə şəraitində keçən yarışda komandamız 1 qızıl və 1 bürünc medal qazanıb. Qızıl medalı komandamıza xanım idmançımız İrina Zaretska qazandırıb. Azərbaycan təmsilçisi norveçli Endrin Hilton, serbiyalı Andriana Vasoviç, çinli Qonq Li və yaponiyalı Kayo Someyanı məğlub edərək finala yüksəlib. Həlledici görüşdə misirli Feryal Abdelazezi məğlub edən İ.Zaretska Karate 1Premyer Liqa turnirinin qalibi olub.

Komandamızın digər üzvü Rafiz Həsənov isə turnirdə bürünc medalla kifayətlənib. Yarışda 67 kiloqram çəki dərəcəsində iştirak edən Rafiz Həsənov üçüncü yer uğrunda döyüşdə braziliyalı Vinisius Fiqueyraya qalib gəlib.

İdmançılar hər qələbəyə və medalların əyarına əsasən dünya reytinqi ilə yanaşı, Olimpiya xalları da qazanıblar. Dünya Karate Federasiyasının (WKF) ən nüfuzlu liqa yarışının Paris mərhələsini idarə edən referilər arasında beynəlxalq hakimlərimiz Cahangir Babayev və Vüqar Kərimov da yer alıblar.



Məlumat üçün qeyd edək ki, turnirdə həmçinin Rafael Ağayev (-75 kq) və İrina Zaretska (-68 kq) ötən mövsümün nəticələrinə əsasən "Grand Winners" mükafatı ilə təltif olunublar.

Bununla da Azərbaycan karateçiləri növbəti dəfə dünyanın ən yaxşı döyüşçüləri arasında yer alıblar. Dünya Karate Federasiyasının ilin yekunlarına əsasən təsis etdiyi nüfuzlu mükafat hər çəki dərəcəsində ən yüksək nəticə göstərən idmançılara təqdim olunur. İdmançılara mükafatları federasiyanın prezidenti Antonio Espinos və Karate1 Premyer Liqa turnirinin Paris mərhələsinin təşkilatçısı, Fransa Karate Federasiyasının prezidenti Fransis Didye təqdim edib.



## Azərbaycan Gimnastika Federasiyasının onuncu ümumi yığıncağı keçirilib

Azərbaycan Gimnastika Federasiyasının (AGF) onuncu ümumi yığıncağı keçirilib. 2019-cu ilin yekunlarına həsr olunmuş tədbirdə federasiyanın İcra Komitəsinin üzvləri, təsisçi qurumların, federasiyanın nümayəndələri və gimnastika növləri üzrə yığma komandaların məşqçiləri və gimnastları iştirak ediblər.

Rəsmi açılışdan sonra yığıncağın gündəliyində duran məsələlər müzakirə olunub. Gündəlikdə federasiyanın fəaliyyəti ilə əlaqədar bir sıra mühüm məsələlər yer alıb.

Əvvəlcə İcra Komitəsi tərəfindən təyin olunmuş mandat komissiyasının üzvləri təsdiq edilib. Daha sonra doqquzuncu ümumi yığıncağın protokolu və onuncu ümumi yığıncağın gündəliyi təsdiqlənib.

Yığıncaqda AGF-in baş katibi Nurlana Məmmədzadənin qurumun 2019-cu ildəki fəaliyyətin yekunlarına və baş mühasib Viktoriya Abuşovanın maliyyə ilinə dair hesabat məruzələri dinlənilib və səsə qoyularaq təsdiq edilib.

Daha sonra gimnastika sahəsində nailiyyət qazanan və ya xidmətləri olan şəxslərə xatirə medalları təqdim olunub.

Bədii gimnastika üzrə yığma komandanın məşqçisi Yevgeniya Velyayeva, akrobatika gimnastikası üzrə yığmanın baş məşqçisi İradə Qurbanova, gimnastlar Abdulla Əl-Məşayxi və Ruhidil Qurbanlı, eləcə də qadın idman gimnastikası üzrə baş məşqçi Pşemislav Lis bürünc medalla təltif ediliblər.

Aerobika gimnastikası üzrə aerodans qrupunun üzvləri Elçin Məmmədov, Balaxanım Əhmədova, Nərminə Hüseynova, İmran İmranov, Mədinə Mustafayeva, Akif Kərimli, Ayxan Əhmədli, Nigar İbrahimbəyli gümüş medala, həmin növ üzrə baş məşqçi Marian Kolev isə qızıl medala layiq görülüblər.

**Avro-2020 könüllüləri üçün xüsusi gecə**
Səh. 2

*Anons*

Hədəfimiz Tokio Yay Olimpiya Oyunlarıdır
Səh. 3

*Tədqiqatçı alimin yeni kitabı çapdan çıxıb*
Səh. 4

Rəngli dünyanın ağ-qara oyunu
Səh. 5

*"Odlar Yurdu" komandası İsveçrədə keçirilən dünya kubokunda tamaşaçıları heyran edib*
Səh. 6

Formula 1 Çempionlar Liqası və İngiltərə Premyer Liqasını qabaqlayır
Səh. 6

*Liderlər uduzdu, iddialılar zirvəyə yaxınlaşdı*
Səh. 7



## Olimpizm



### Yeniyetmələr arasında 2020-ci ilin Qış Olimpiya Oyunları bağlı elan edilib

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Prezidenti Tomas Bax yeniyetmələr arasında 2020-ci ilin Qış Olimpiya Oyunlarının bağlanmasını rəsmən elan edib.

İsveçrənin Lozanna şəhərində keçirilmiş yarışlarda Rusiya yığması rekord sayda - 29 medal, o cümlədən 10 qızıl, 11 gümüş və 8 bürünc medal qazanaraq ümumi komanda hesabında qalib gəlib. Qazanılmış medalların sayına görə əvvəlki rekordun də sahibi rusiyalılar olub: 2016-cı il Oyunlarında onlar 24 mükafata (7-8-9) sahib olublar. Lozannada keçirilən Oyunlarda ikinci yeri İsveçrə yığması (10-6-8), üçüncü yeri yaponiyalılar tutub (9-7-1).

Oyunların bağlanış mərasimində Rusiya yığmasının bayraqdarı Nikolay Lısakov (körlinq) olub. O, komanda yarışlarında bürünc medal, qarışıq duetlərin yarışlarında isə gümüş medal qazanıb.

Yeniyetmələrin Oyunlarında 14-18 yaşlarında idmançılar iştirak edib. 2024-cü ildə yeniyetmələr arasında Qış Olimpiya Oyunları yanvarın 19-dan fevralın 2-dək Cənubi Koreyanın Kanvondo əyalətində keçiriləcək.

### Yaponiyalı həkimlər çağırış ediblər

Yaponiya səhiyyə təşkilatı hakimiyyət orqanlarını Tokio-2020 Olimpiya və Paralimpiya Oyunları ərəfəsində yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə könüllüləri və məmurları peyvənd etməyə çağırıblar.

Yarışlar vaxtı insanların diqqətli olması üçün artıq yoluxucu xəstəliklərin siyahısı hazırlanıb.

Assosiasiya, həmçinin Olimpiya və Paralimpiya oyunlarının iştirakçılarını səkkiz yoluxucu xəstəlik üzrə peyvənd olunmağa çağırır. Bu siyahıda qızılca, qrip və invaziv meningokok infeksiyası kimi xəstəliklər də yer alıb.

## Fransa Qran-Prisində 7 medal

Fransanın Nitsa şəhərində Olimpiya çempionu Anri Deqlanın xatirəsinə sərbəst və yunan-Roma güləşi üzrə Qran-Pri turniri keçirilib. Ölkəmizi ənənəvi turnirdə baş məşqçi Aleksandr Tarakanov və məşqçi Akif Əliyevin rəhbərliyi altında yunan-Roma güləşi üzrə millimiz təmsil edib.

Komandamız Qran-Pridə uğurlu çıxış edərək 4 qızıl, 2 gümüş və 1 bürünc medal qazanıb. Murad Məmmədov (60 kq), Ülvi Qənizadə (72 kq), Rafiq Hüseynov (82 kq) və Sabah Şəriəti (130 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Sənan Süleymanov (72 kq), Orxan Nuriyev (97 kq) ikinci, Taleh Məmmədov (63 kq) isə üçüncü yeri tutublar.

Xatırladaq ki, turnirdə beynəlxalq dərəcəli hakim Əli Babayev ədaləti qoruyub.




## Sablyaçımız Almaniyada keçirilən açıq turnirlərin qalibi olub

Azərbaycan sablyaçısı Zərifə Hüseynova 15 yaşınadək olan 18 idmançı arasında birinci olub.

İdmançımız pley-off mərhələsində 3 görüşdə qalib gəlib. Hər 3 görüşdə onun rəqibləri Almaniya təmsilçiləri olub. İlk görüşdə Lina Bauerini (15:6), sonra Jozefina Koberi (15:4) məğlub edən Zərifə həlledici görüşdə Tereza Endsleytner üzərində də qələbə qazanaraq (15:9) hamıdan irəli çıxıb.

Z.Hüseynova 17 yaşadək olan idmançılar arasında da eyni uğura imza atıb. O, dörddəbir finalda Almaniya təmsilçisi Ruz Seyqneri üzərində 15:4 hesabı ilə qələbə qazanıb, yarımfinalda isə çexiyalı Kristina Bursikovanı 15:2 hesabı ilə məğlubiyyətə uğradıb. 15:9 hesabı ilə başa çatan final görüşündə Zərifənin rəqibi Çexiyanın digər nümayəndəsi Kristina Draqoradova olub.

## Azərbaycan çempionatına yekun vurulub

Yanvarın 25-də Respublika Olimpiya Mərkəzində keçirilən atletika üzrə 37-ci qış çempionatına yekun vurulub. Çempionatın ikinci günündə kişi və qadın atletlər 200, 800 və 3000 metr məsafələrə qaçış yarışlarında güclərini sınayıblar. Bundan başqa, atletlər üç təkanla, uzunluğa və hündürlüyə tullanma yarışlarında mübarizə aparıblar.

Yarışların ikinci günündə kişilər arasında üçtəkanla tullanmada Rüstəm Məmmədov, uzunluğa tullanmada Yadulla İbrahimov və hündürlüyə tullanmada isə Aydın Bədəlov qalib adını qazanıblar. Qadınlar arasında isə uzunluğa tullanmada Yelena Pextireva, hündürlüyə tullanmada isə İlona Salyamova birinci yerə layiq görülüblər.




Qaçış növləri üzrə kişilərin yarışında Rahib Məmmədov (60 m sədlərlə qaçış), Teymur Salahzadə (200 m), İlham Abışov (800 m) və Əmrah Nağıyev (3000 m) birinci yerdə qərarlaşıblar. Qadınların yarışında isə Lamiyə Vəliyeva (200 m) və Anna Yusupova (3000 m) birinci olublar.

Gənclər və İdman Nazirliyinin və Azərbaycan Atletika Federasiyası tərəfindən diplom və medallarla təltif olunublar.



## Avro-2020 könüllüləri üçün xüsusi gecə

UEFA Avro-2020-nin Bakıda keçiriləcək üç oyununun (Uels-İsveçrə, Türkiyə-Uels, İsveçrə-Türkiyə) və dörddəbir final qarşılaşmasının təşkilati işlərində müxtəlif sahələr və funksiyalar üzrə 2020 könüllü çalışacaq. AFFA tərəfindən 2019-cu ilin iyunundan etibarən könüllülərin qeydiyyat mərhələsinə start verilib. Beş ay ərzində 6797 könüllü namizəd qeydiyyatdan keçib. Müraciət sayına görə Bakı şəhəri Avropa çempionatı təşkil olunacaq 12 şəhər arasında ən yüksək göstəriciyə malikdir. Altı mindən çox namizədlə təkbətək müsahibə aparılıb.

Bu oyunlarda fəaliyyət göstərəcək könüllülər üçün yanvarın 25-də "Elektra Events Hall"da xüsusi gecə təşkil olunub.

Tədbirdəki çıxışlarda Prezident İlham Əliyevin gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə 2020-ci ili Azərbaycanda "Könüllülər ili" elan etməsi xüsusi qeyd olunub.

AFFA-nın prezidenti Rövnəq Abdullayev və Gənclər və İdman naziri Azad Rəhimov çıxışlarında öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə Avro-2020-yə yeni nəfəs verən könüllülərin fəaliyyətinin əhəmiyyətindən danışıblar.

Sonra Rövnəq Abdullayev, Azad Rəhimov və AFFA-nın baş katibi Elxan Məmmədov Avro-2020-nin Bakını təmsil edən səfiri Vəli Qasımova, həmçinin Bakı Könüllülər Proqramının səfiri Taleh Yüzbəyova ölkə əhəmiyyətli idman tədbirində göstərdikləri dəstəyə görə mükafatlar təqdim ediblər. Eyni zamanda, dörd ən fəal könüllüyə hədiyyələr verilib.

## Cüdoçularımız Təl-Əvivdə fərqlənə bilmədilər

İsrailin paytaxtı Təl-Əvivdə keçirilən cüdo üzrə Qran-Pri turniri başa çatıb. Turnirdə 15 cüdoçu ilə mübarizə aparan Azərbaycan komandası yarışı medalsız başa vurub.



Xatırladaq ki, bundan əvvəl təşkil olunan analoji yarışda cüdoçumuz İrina Kindzerska (78 kq-dan yuxarı) qızıl, Məmmədəli Mehdiyev (90 kq) bürünc medal qazanıblar. Bu nəticə ilə komandamız ümumi hesabda beşinci olub.

## Kəmər güləşi üzrə beynəlxalq turnirdən 2 mükafat

İranın Qolestan vilayətinin Qombed şəhərində kəmər güləşi üzrə beynəlxalq turnir keçirilib. Yarışda Azərbaycanla yanaşı, İran, Türkmənistan və Əfqanıstanı təmsil edən 100-ə yaxın idmançı iştirak edib. Azərbaycan Sumo Federasiyasının prezidenti Samir Abdullayevin rəhbərliyi altında İrana yollanan yığma komandamızın tərkibində 5 idmançı, 1 məşqçi və 1 hakim yer alıb.




İdmançılar yarışda 74 kq, 82 kq, 90 kq, 100 kq və +100 kq çəki dərəcəsində qüvvələrini sınayıb. Komandamız turnirdə 1 gümüş və 1 bürünc medal qazanıb. Yarışda +100 kq çəki dərəcəsində mübarizə aparan Camal Feyziyev gümüş medala layiq görülüb. Komandamızın digər üzvü Cavid Mustafayev isə bürünc medala sahib çıxıb.

Qeyd edək ki, turnirdə ölkəmizi hakim qismində Rəsul Həsənov təmsil edib. İrana yollanan komandamızın tərkibində həmçinin məşqçi Ayaz Cəfərov da yer alıb.

## Millimiz reytinqdə 5-ci pilləyə yüksəlib

Avropa Voleybol Konfederasiyası qadın voleybolçulardan ibarət milli komandaların yeni reytinq cədvəlini açıqlayıb. Hesabında 225 xal olan Azərbaycan millisi beşinci pillədə qərarlaşıb. Ötən reytinq cədvəli ilə müqayisədə millimiz 6 pillə irəliləyib.

Reytinq cədvəlinə 250 xalla Serbiya seçməsi başçılıq edir. Aktivində 236 xal olan Türkiyə və İtaliya komandaları ilk üçlüyü tamamlayır.



## Azərbaycan Milli Paralimpiya Komitəsində iclas keçirilib



Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov Paralimpiya Oyunlarında ölkəmizin təmsil edilməsi ehtimal olunan idman növləri üzrə baş məşqçilərlə görüşüb.

Görüşdə Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarına hazırlıqla əlaqədar komitənin cari il üçün strateji fəaliyyət planında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi məqsədilə görüləcək işlər və qarşıda duran vəzifələr geniş müzakirə edilib və idman növləri üzrə baş məşqçilərin məlumatları dinlənilib.

İ.Rəhimov baş məşqçilərdən idmançıların hazırkı fiziki və psixoloji vəziyyəti ilə maraqlanıb və müvafiq tapşırıqlarını verib.

Tədbirdə AMPK-nın vitse-prezidenti İlham Zəkiyev və baş katib Kamal Məmmədov iştirak ediblər.

Qeyd edək ki, idmançılarımız bu günədək Tokio-2020-yə 7 lisenziya qazanıb. Bu lisenziyalar güllə atıcılığı, atletika, üzgüçülük və pouerliftinq idman növləri üzrədir. Tokio-2020 Yay Paralimpiya Oyunlarında Azərbaycanın 7 idman növü üzrə 30 idmançı ilə təmsil olunacağı proqnozlaşdırılır.

## "Neftçi idman klubu" İB

# Hədəfimiz Tokio Yay Olimpiya Oyunlarıdır

## "Neftçi İdman Klubu" 2019-cu ilin idman təşkilatı seçilib



*Sadıq Sadıqov, "Neftçi İdman Klubu" İctimai Birliyi idarəetmə aparatının rəhbəri, Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti, MOK-un İcraiyyə Komitəsinin üzvü, Əməkdar bədən tərbiyəsi və idman xadimi*

Bu gün ölkəmiz Beynəlxalq Olimpiya Hərəkatında şərəfli bir yolla irəliləyir. Son illər Azərbaycanda idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində görülən nəhəng, dünyanın ən inkişaf etmiş idman ölkələrinin də təəccübünə səbəb ola biləcək işlər hər birimizdə qürur hissi yaratmaqla bərabər, təbii ki, həm də bizi çox sevindirir. Buna görə isə ilk növbədə dövlətimizin idmana göstərdiyi diqqət və qayğını xüsusi dəyərləndirməyə borcluyuq. Belə ki, paytaxtımızda və respublikanın müxtəlif bölgələrində beynəlxalq standartlara cavab verən müasir olimpiya idman kompleksləri tikilir ki, bunlar da yüksək səviyyəli idmançıların hazırlanması üçün münbit şərait yaradır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında bu sahədə həyata keçirilən düzgün və məqsədyönlü dövlət siyasəti sayəsində ölkəmiz Avropanın və dünyanın idman mərkəzlərindən birinə çevrilməkdədir. Məhz dövlətin, Milli Olimpiya Komitəsinin gündəlik qayğısı sayəsində həyata keçirilən tədbirlərin, görülən işlərin nəticəsində Azərbaycan ümumdünya olimpiyaçılar ailəsində böyük nüfuz sahibi olub. Son illər ölkəmizin beynəlxalq aləmdə qazandığı inam sayəsində müxtəlif səviyyəli mötəbər yarışların respublikamızda keçirilməsi və idmançılarımızın əldə etdiyi yüksək nailiyyətlər bunun təzahürüdür.

"Neftçi İdman Klubu" bu sahədə dövlət siyasətinin həyata keçirilməsində daim yaxından iştirak edib və bu gün də öz işini uğurla davam etdirir. Klubumuz mütəmadi olaraq neft, qaz və kimya sənayesinin işçiləri arasında idmanın müxtəlif növləri üzrə yarışlar təşkil edir. Bununla bərabər, peşəkar idmançıların yetişdirilməsi işində də bütün gücü ilə çalışır və Azərbaycan idmanına öz töhfələrini verir.

Geriyə boylansaq, 2019-cu ildə klubumuzun çoxsaylı uğurlara imza atdığının şahidi olarıq. Bu müddət ərzində klubun strukturunda fəaliyyət göstərən qurğularda idmanın 35 növü üzrə 234 peşəkar məşqçi-müəllimin rəhbərliyi altında minlərlə yeniyetmə və gənc, eləcə də 900-dən artıq neftçi idmanla məşğul olub.

Yola saldığımız ildə "Neftçi İdman Klubu"nun fəaliyyətinin əsas istiqaməti kimi, SOCAR-ın strukturuna daxil olan neft, qaz və kimya sənayesi müəssisələrində çalışan işçilərə və onların ailə üzvlərinə müasir tələblərə cavab verən bədən tərbiyəsi və idman xidmətlərinin göstərilməsi istiqamətində mühüm işlər görülüb. Bu müddət ərzində həmin işçilər arasında klubumuz tərəfindən voleybol (yanvar ayında kişilər, martda isə qadınlar arasında), futtennis, səmti müəyyənetmə, piyada turizm, mini-futbol (28 - May Respublika Gününə və 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş turnirlər), "Atam, anam və mən" (1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş idman-turizm yarışı) üzrə kütləvi bədən tərbiyəsi və idman tədbirləri, eləcə də spartakiada keçirilib ki, bu yarışlarda da 2000-ə yaxın insan iştirak edib.

Respublikamızda idmanın kütləviləşməsi, sağlam gəncliyin formalaşması, neftçilərin asudə vaxtlarının səmərəli təşkil olunması məqsədi daşıyan bu tədbirlərdən ən möhtəşəmi və təntənəli qeyd olunanı isə hər ilin sentyabr ayında neftçilərin peşə bayramı (20 sentyabr - "Neftçilər günü") ərəfəsində təşkil olunan spartakiadadır. 2019-cu ildə klubumuz tərəfindən neft, qaz və kimya sənayesi işçilərinin XXVII Spartakiadası keçirildi. Yarışda 33 müəssisədən olan komandaların tərkibində 1400-dən artıq neftçi iştirak edirdi ki, onlardan da 300-dən çoxu qadınlar idi. Spartakiadada 14 idman növü (atletika, mini-futbol, üzgüçülük, voleybol, stritbol, daşqaldırma, şahmat, dama, nərd, stolüstü tennis, darts, kəndirdartma, futtennis və güllə atıcılığı) üzrə yarışlar təşkil edilmişdi.

Böyük idman və peşəkar idmançıların hazırlığı sahəsində də böyük uğurlara nail olunub.Yola saldığımız ildə akrobatika idman növü üzrə klubun açıq birinciliyi və ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş şahmat turniri keçirilib ki, bu yarışlarda da yüzlərlə idmançı bacarığını nümayiş etdirib.

Respublikamız müstəqillik əldə etdikdən indiyə qədər idmançılarımız bütün olimpiadalarda (Atlanta, Sidney, Afina, Pekin, London və Rio de Janeyro) iştirak edərək ölkəmizə medallarla dönüblər. Bununla bərabər, klubun yetirmələri bu gün də müxtəlif səviyyəli beynəlxalq yarışlarda mütəmadi olaraq ölkəmizi layiqincə təmsil edir, üçrəngli bayrağımızı ucaltmaqda davam edirlər. Təkcə 2019 - cu il ərzində idmançılarımız 1256 medal qazanıblar ki, onlardan da 437-si qızıl, 366-sı gümüş, 453-ü isə bürüncdür.

İyunda Belarusun paytaxtı Minskdə keçirilən II Avropa Oyunlarında klubumuzun yetirmələri böyük uğura imza atıblar. Belə ki, Avropanın 50 ölkəsindən 4 mindən çox atletin mübarizə apardığı mötəbər turnirdə "Neftçi İdman Klubu"nun təmsilçiləri 2-si qızıl, 3-ü gümüş və 4-ü bürünc olmaqla bu oyunların 9 medalına sahib olublar. Qızıl medallara Hacı Əliyev və Mahir Əmiraslanov (hər ikisi sərbəst güləş) layiq görülüblər. Rüstəm Orucov (cüdo), İslam Abbasov (yunan-Roma güləşi), Ağasif Səmədov (sambo) gümüş, Hidayət Heydərov, Məmmədəli Mehdiyev, Elmar Qasımov və İrina Kindzerska (hamısı cüdo) isə bürünc medala yiyələniblər.

Elə həmin ay "Neftçi İdman Klubu"nun atleti Nazim Babayev İtaliyanın Neapol şəhərində keçirilən XXX Ümumdünya Yay Universiadasının qızıl medalına sahib olub. O, üç təkanla tullanma yarışının finalında 16,89 metr nəticə göstərərək, Universiadanın qalibi olub. Klubumuzun digər yetirməsi, cüdoçu Hidayət Heydərov isə gümüş medala layiq görülüb.

İyul ayında Bakıda təşkil olunan XV Avropa Gənclər Yay Olimpiya Festivalında da idmançılarımız yüksək nailiyyətlər qazanıblar. Təmsilçilərimizdən Elmir Əliyev və Xasay Həsənli (hər ikisi yunan-Roma güləşi) əzmlə mübarizə apararaq mötəbər yarışın qalibi adını qazanıblar. Əbülfəz Nəsirov (sərbəst güləş) və Vüqar Talıbov (cüdo) gümüş, Şükran Zamanlı (cüdo) isə bürünc medala yiyələniblər.

Martda Şotlandiyanın paytaxtı Qlazqoda keçirilən atletika üzrə 35-ci qış Avropa çempionatında Nazim Babayev üçtəkanla tullanma yarışlarında 17,29 metr nəticə göstərərək, qızıl medal qazanıb və bu nəticə ilə o, həm də öz şəxsi rekordunu yeniləyib.

Aprel ayında Rumıniyanın paytaxtı Buxarestdə baş tutan güləş üzrə Avropa çempionatında "Neftçi İdman Klubu"nun Azərbaycan millisinin heyətində yer almış sərbəst güləşçiləri qitə çempionatında uğurla çıxış ediblər. Üçqat dünya, ikiqat Avropa çempionu Hacı Əliyev karyerasında üçüncü dəfə Avropa çempionu adına sahib çıxıb. Beləliklə, Hacı Əliyev həm üçqat dünya, həm də üçqat Avropa çempionu olub. Mahir Əmiraslanov isə bürünc medal əldə edib. Yunan-Roma güləşçimiz İslam Abbasov gümüş medala yiyələnib. Avqustda Bolqarıstanın paytaxtı Sofiyada yeniyetmə güləşçilər arasında keçirilən dünya birinciliyində klubumuzun yunan-Roma güləşçisi, Avropa Gənclər Olimpiya Festivalının qalibi Elmir Əliyev böyük əzmkarlıq nümayiş etdirərək gümüş medal qazanıb. Elə həmin ay Estoniyanın paytaxtı Tallində gənc güləşçilərin dünya birinciliyində isə digər yunan-Roma güləşçimiz Ülvi Qənizadə eyni uğuru təkrarlayaraq, dünya ikincisi olub. Noyabrda Macarıstanın paytaxtı Budapeştdə 23 yaşadək güləşçilər arasında təşkil olunan dünya çempionatında "Neftçi İdman Klubu"nun yunan-Roma güləşçisi Sənan Süleymanov gümüş medala yiyələnib.

Sentyabr ayında güllə atıcımız Ruslan Lunyov İtaliyanın Bolonya şəhərində gerçəkləşən Avropa çempionatında 25 metr məsafəyə kiçikçaplı tapançadan atəşaçma yarışında 587 xal toplayıb və qitə çempionatının qızıl medalına sahib olub.

Oktyabrda şahmatçımız Teymur Rəcəbov Rusiyanın Xantı-Mansiysk şəhərində təşkil olunan dünya kubokunda böyük uğura imza atıb. Belə ki, klubumuzun təmsilçisi Azərbaycanın şahmat tarixində ilk dəfə dünya kuboku turnirinin qalibi olub.

İyun ayında Polşanın paytaxtı Varşavada yeniyetmə cüdoçular arasında baş tutmuş Avropa birinciliyində "Neftçi İdman Klubu"nun yığma komandamızın heyətində yer alan cüdoçusu Hüseyn Məmmədov Avropa birinciliyinin bürünc medalını qazanıb.

Avqustda Yaponiyanın paytaxtı Tokioda keçirilən cüdo üzrə dünya çempionatında təmsilçilərimiz daha bir uğura imza atıblar. Böyük əzmkarlıq nümayiş etdirən cüdoçularımızdan Rüstəm Orucov gümüş, Hidayət Heydərov isə bürünc medala sahib çıxıb. Sentyabr ayında Finlandiyanın Vantaa şəhərində gənclər arasında cüdo üzrə Avropa birinciliyində klubumuzun cüdoçularından ikisi mükafata layiq görülüb. İdmançılarımızdan Əhməd Yusifov və İbrahim Əliyev qitə birinciliyinin bürünc medallarını əldə ediblər. Həmin ay Qazaxıstanın Almatı şəhərində keçirilən yeniyetmələr arasında dünya birinciliyində "Neftçi İdman Klubu"nun cüdoçusu Vüqar Talıbov bürünc medal qazanıb. Onu da qeyd etmək yerinə düşər ki, yeniyetmələrdən ibarət milli komandamız bu dünya birinciliyində tarixdə ilk dəfə finala yüksəlib və mötəbər yarışın gümüş medalına layiq görülüb.

Oktyabrda Mərakeşdə təşkil olunan gənclər arasında cüdo üzrə dünya birinciliyində Azərbaycan millisinin heyətində yer alan iki idmançımız uğurla çıxış edərək medala sahib olub. Cüdoçularımızdan Əhməd Yusifov gümüş, İbrahim Əliyev isə bürünc medala yiyələnib.

Bundan əlavə, cüdoçularımız il ərzində təşkil olunmuş Avropa kuboku yarışlarında, eləcə də "Böyük dəbilqə" və Qran-pri beynəlxalq turnirlərində əzmlə mübarizə apararaq, ölkəmizə medallarla dönmüşlər.

2019-cu ildə təkmübarizlik növləri ilə yanaşı, kollektiv oyun növləri üzrə də mühüm addımlar atılıb. Yüksək liqada çıxış edən kişilərdən ibarət voleybol komandamız sonuncu Azərbaycan çempionatında 2-ci yeri tutub.

Klubumuz uşaq futbolunun inkişafını özünün prioritet məsələlərindən hesab edir. Ona görə də uşaq futbolunda çalışmış təcrübəli mütəxəssislər və kateqoriyalı məşqçilər bu işə cəlb olunub. Klub tərəfindən daim seleksiya xarakterli toplantılar keçirilir, istedadlı uşaqlar, yeniyetmələr seçilərək müxtəlif yaş qrupları üzrə komandalara cəlb olunurlar. Hal-hazırda "Neftçi İdman Klubu"nda 24 məşqçinin rəhbərliyi altında 300-dən çox uşaq və yeniyetmə futbolun sirlərinə yiyələnir. Klubumuzun uşaq futbol komandaları AFFA-nın təşkilatçılığı ilə keçirilən aşağı yaş qrupları üzrə bütün liqalarda yüksək səviyyədə təmsil olunurlar.

Sadaladığımız bu uğurlar ötən il ərzində klubun qazandığı nailiyyətlərin cüzi bir hissəsidir. 2019-cu ildə əldə etdiyi yüksək nailiyyətlər sayəsində klubumuz Gənclər və İdman Nazirliyi tərəfindən "İlin ən yaxşı idman təşkilatı" adına layiq görülüb. Bundan əlavə, həmin qurum tərəfindən "İlin ən yaxşı idmançıları" nominasiyasında qalib olan idmançılardan altısı - Hacı Əliyev (sərbəst güləş), Nazim Babayev (atletika), Teymur Rəcəbov (şahmat), Rüstəm Orucov (cüdo), Elçin Əsədov (velosiped) və Aynur Məmmədova (parataekvondo) klubumuzun yetirmələridir. Bütün bu göstəricilər "Neftçi İdman Klubu"nun Azərbaycanda lider idman cəmiyyəti olmasının əyani sübutudur.

Ancaq biz qazanılan bu uğurlarla kifayətlənmirik. Əksinə, daha yüksək nailiyyətlər əldə etmək üçün inamla, əzmlə çalışaraq irəliyə doğru addımlamaqda qərarlıyıq.

Hazırda əsas hədəfimiz bu il Yaponiyanın paytaxtı Tokioda təşkil olunacaq XXXII Yay Olimpiya Oyunlarına daha yaxşı hazırlaşmaq və həmin mötəbər yarışda ölkəmizi layiqincə təmsil etməkdir. Məqsədimizə çatmaq üçün var gücümüzlə çalışır və bu istiqamətdə bütün qüvvələrimizi səfərbər etmişik.

Şübhəsiz, klubumuzun bu nailiyyətləri əldə etməsində SOCAR-ın prezidenti Rövnəq Abdullayevin idmançılarımıza göstərdiyi diqqət və qayğı xüsusi vurğulanmalıdır. Məhz onun mütəmadi olaraq göstərdiyi qayğının sayəsində klubun idman qurğuları ən müasir idman inventar və avadanlıqları ilə təchiz olunub, idmançı, məşqçi və hakimlər müxtəlif beynəlxalq yarışlara, təlim-məşq toplanışı və seminarlara ezam olunublar. Bir sözlə, idmançılarımıza uğur qazanmaq üçün hər cür şərait yaradılıb.

# Tədqiqatçı alimin yeni kitabı çapdan çıxıb




Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının pedaqogika üzrə elmlər doktoru, professor Dilqəm Quliyevin yeni kitabı işıq üzü görüb. İdman sahəsində tədqiqat aparan professorun yeni kitabı "Magistr" (ADBTİA-nın əməkdaşlarının bədən tərbiyəsi və idman üzrə müdafiə edilmiş dissertasiya işlərinin biblioqrafiyası, 1999-2019-cu illər) adlanır.

Biblioqrafiyada Azərbaycan Respublikasının tarixində ilk dəfə olaraq, bədən tərbiyəsi və idman haqqında pedaqogikanın nəzəriyyəsi, tarixi, bioloji, fizioloji və texnki fənnlər sahəsində elmin ayrı-ayrı aspektləri araşdırılmış, elmi işlər Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kitabxanasının kitabişləmə və kataloqlaşdırma şöbəsində elektron katolaqa salınmış və magistr dissertasiyalarının qısa mövzularının adları öz əksini tapmışdır.

Biblioqrafik siyahıya 10 il ərzində Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının əməkdaşlarının bədən tərbiyəsi və idmanın müxtəlif sahələri illər üzrə üç bölmədə (Azərbaycan, rus və ingilis dillərində müdafiə edilmiş magistr dissertasiya işlərinin mövzularının adları, müəllifin adı və mövzunun şifrəsi daxil edilmişdir.

Dissertasiya üzrə elmi işlər Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kitabxanasının kitabişləmə və kataloqlaşdırma şöbəsinin dissertasiya və avtoreferatlar fondunda saxlanılmışdır.

Aparılmış statistikaya əsasən belə nəticəyə gəlmək olar ki, akademiyanın yüksək ixtisaslı kadrları illər üzrə 425 (315-i kişi, 110-u isə qadın) magistr üzrə dissertasiya müdafiə etmişlər. Onlardan 308-i pedaqoji, 15-i psixoloji, 34-ü fizioloji, 54-ü bioloji, 6-sı "İdman jurnalistikası", 3-ü "İdman menecmenti", 5-i isə "İdman tibbi və reabilitasiya" ixtisasları üzrədir. Biblioqrafiya Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Elmi şurasının 29 dekabr 2019-cu il tarixli iclasında müzakirə edilərək bəyənilmiş və nəşri məqsədəuyğun bilinmişdir.

# "Judo Club 2012"nin idman xronikası



Fövqəladə Hallar Nazirliyinin (FHN) İdman-Sağlamlıq Mərkəzində yeniyetmələr arasında (U-18) cüdo üzrə keçirilən respublika birinciliyində "Judo Club 2012" idman klubunun yetirmələri 2 gümüş, 1 bürünc medal qazanıblar. Klubun aktivinə gümüş medalları Məmmədrza Hacızadə (60 kq) və Zeynəb Məmmədova (52 kq), bürünc medalı isə Fidan Rəhimova (70 kq) yazdırıblar. Klubun təmsilçilərindən Rəşad Paşazadə (81 kq) və Əli Mahmudov (90 kq) beşinci yerlə kifayətlənməli oldular.

Budəfəki respublika birinciliyində 68 klubdan 565 (488 oğlan, 77 qız) cüdoçu doqquz çəki dərəcəsində mübarizə aparıb.

* * *

Xorvatiyanın Samobor şəhərində yeniyetmə və gənclər arasında karate üzrə 29-cu beynəlxalq Qran-Pri turniri keçirilib. Yarışda iştirak edən Azərbaycan komandasının tərkibində "Judo Club 2012"nin iki karateçisi - Abbas Dadaşov (68 kq) və Fərid Ağayev (76 kq) də mübarizə aparıblar. İdman ocağının yetirməsi Abbas Dadaşov kumite üzrə 16-17 yaşlı idmançıların yarışında bürünc medal qazanıb. Bu turnir fevralın 7-9-da Budapeştdə keçiriləcək yeniyetmə və gənclərin Avropa birinciliyinə sonuncu seçmə hazırlıq yarışı olub. Azərbaycan çempionatında ikinci, seçmə görüşlərdə isə birinci yeri tutan Abbas Dadaşov Xorvatiyada da ümidləri doğruldaraq qitə birinciliyinə vəsiqə qazanıb.

Qran-Pri turnirində yarımfinala qədər irəliləyən klubun digər təmsilçisi Fərid Ağayev isə həm Azərbaycan çempionatının, həm də seçmə görüşlərin qalibi kimi qitə birinciliyində iştirak hüququ əldə edib.

* * *

Klubun karateçiləri növbəti uğuru 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş ənənəvi beynəlxalq turnirdə qazanıblar. Azərbaycan Milli Karate Federasiyasının (AMKF) və "Arpaçay" karate klubunun birgə təşkilatçılığı ilə keçirilən yarışda uşaq, yeniyetmə və gənc idmançılar qüvvələrini sınayıblar. Beynəlxalq turnirdə inamla mübarizə aparan "Judo Club 2012"nin yetirmələri yarışı 1 gümüş və 2 bürünc medalla başa vurublar. Klubun aktivinə yeganə gümüş medalı 12-13 yaşlı idmançılar arasında mübarizə aparan Ramazan Əlizadə (40 kq) yazdırıb. Bu yaş kateqoriyasında 35 kiloqram çəki dərəcəsində yarışan Hüseyn Muxtarzadə isə bürünc medala layiq görülüb. Daha bir bürünc medalı 14-15 yaşlı idmançıların yarışında qüvvəsini sınayan Rəsul Abbasov (52 kq) qazanıb.

"Judo Club 2012"nin idmançıları yarışda klubun karate bölməsinin rəhbəri Gündüz Mahmudovun və məşqçi Namiq Pirverdiyevin rəhbərliyi ilə iştirak ediblər.

# Xorvatiya sınağında 10 medal

Yeniyetmə və gənclərdən ibarət milli komandamız Xorvatiyanın Samobor şəhərində keçirilən 29-cu beynəlxalq "Gran Pri" turnirində 1 qızıl, 2 gümüş, 7 bürünc medal qazanıb. Komandamızın üzvlərindən Murad Hacızadə (+84 kq) 18-20 yaşlı gənclər arasında çempion olub. Fərid Savadov (-57 kq, 14-15 yaşlı yeniyetmələr) və Osman Osmanlı (+76 kq, 16-17 yaşlı yeniyetmələr) ikinci yeri tutub. Sultan Hüseynov və Ramil Baxşəliyev (-55 kq, 16-17 yaşlı gənclər), Abbas Dadaşov (-68 kq, 16-17 yaşlı gənclər), Tale Yaqubov (-68 kq, 16-17 yaşlı gənclər), Həsənəli Həsənəliyev (kata, 16-17 yaşlı gənclər), eləcə də Ceyhun İsmayılov (kata, 18-20 yaşlı gənclər) və Fidan Teymurova (-50 kq, 18-20 yaşlı gənclər) bürünc medal qazanıb. Yarışda 24 ölkədən 2047 karateçi iştirak edib.

# Ölkəmiz beynəlxalq turnirə ev sahibliyi edəcək

Martın 5-8-də Boks İdman Mərkəzində 11-ci Beynəlxalq "Baku Open" Karate Turniri keçiriləcək. Yarışda 6-13 yaşlı uşaqlar, 14-15 yaşlı yeniyetmələr, 16-17 və 18-20 yaşlı gənclər, böyüklər və veteran karateçilər iştirak edəcəklər. Fərdi və komanda yarışlarında 10-dan artıq ölkədən 1000-dək idmançının iştirakı gözlənilir.

# 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş beynəlxalq turnir

Azərbaycan Milli Karate Federasiyası (AMKF) və "Arpaçay" karate klubunun birgə təşkilatçılığı ilə Bakı İdman Sarayında 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş ənənəvi beynəlxalq turnir keçirilib.

Uşaq, yeniyetmə və gənclər arasında təşkil edilən sayca beşinci açıq turnirdə 12 ölkə, o cümlədən İran, Rusiya, Türkmənistan, Gürcüstan, Ukrayna, Qazaxıstan, Özbəkistan, Küveyt, Türkiyə, Mərakeş, Oman və ölkəmizi təmsil edən 89 klubun tərkibində 939 idmançı və 50 komanda mübarizə aparıb.

Turnirin birinci günü bütün yaş qruplarında kata yarışları, ertəsi gün 6-11 yaşlı uşaqlar, bazar günü isə 12-17 yaşlı yeniyetmə və gənclər çıxış ediblər.

Gərgin mübarizə şəraitində keçən yarışda "Qara Qaplan" klubu 20 qızıl, 13 gümüş və 25 bürünc medal qazanaraq birinci yeri tutub. 12 qızıl, 9 gümüş və 12 bürünc medal qazanan "Arpaçay" klubu ikinci yerə layiq görülüb. Ukraynanı təmsil edən "Pashayev" klubu isə 7 qızıl, 4 gümüş və 15 bürünc medalla üçüncü sırada qərarlaşıb. Yarışı milli hakimlərimizlə birgə, 5 ölkədən 22 beynəlxalq hakim idarə edib.







Azərbaycan Milli Antidopinq Agentliyində (AMADA) İdmançı Məsləhət Komissiyası təsis edilib. Komissiyanın məqsədi agentliyə antidopinq sahəsində idmançıların hüquqlarının müdafiəsi və təmiz idmanın təşviq edilməsi üzrə məsləhətlərin verilməsidir.

# *AMADA-da İdmançı Məsləhət Komissiyası yaradılıb*

Komissiya 12 idmançı üzvdən ibarət olacaq. On yer milli idman federasiyaları tərəfindən təyin edilmiş idmançılara, 2 yer isə müstəqil qaydada ərizə vermiş idmançıya ayrılacaq.

Təyin edilmə zamanı gender bərabərliyi və yaş üzrə təmsilçilik prinsipləri əsas götürüləcək. Komissiyanın tərkibi rotasiya qaydaları üzrə dəyişəcək.

# AIBA-dan kiçik ölkələrin milli federasiyalarına kömək

Beynəlxalq Boks Assosiasiyası (AIBA) kiçik ölkələrin milli federasiyalarına beynəlxalq yarışlarda iştirak etmək üçün kömək edəcək.

Bunu AIBA-nın inkişaf və marketinq komissiyasının rəhbəri Umar Kremlev deyib.

U.Kremlev qeyd edib ki, Şimali və Cənubi Amerikanın 38 milli federasiyasının iştirakı ilə Panamada keçirilən AIBA-nın qitə forumunda qaldırılan məsələlərdən biri də maliyyə çətinliyi səbəbindən kiçik ölkələrin beynəlxalq yarışlarda iştirak etməməsi olub.

Bildirib ki, bu problemin həlli ilə bağlı plan hazırlanmalıdır. AIBA rəsmisinin sözlərinə görə, forumdan sonra bununla bağlı tədbirlər görüləcək.



# *Badmintonçuların paytaxt birinciliyinə yekun vurulub*



Bakıda 2010-cu il və daha kiçik təvəllüdlü oğlan və qızlar arasında badminton üzrə paytaxt birinciliyinə yekun vurulub. Yarışda 32 oğlan və 16 qız iştirak edib.

Oğlanların şəxsi yarışında Anar Hüseynov, qızlarda isə Nəzrin Mehrəlizadə birinci olublar. Qoşa yarışlarda A.Hüseynov-Vüsal Məmmədli və N.Mehrəlizadə-Leyla Camalzadə tandemi rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Qarışıq-qoşa yarışlarda A.Hüseynov-Zeynəb Mirzəli cütü qalib gəlib.

Mükafatçılar diplom, medal və hədiyyələrlə təltif olunublar.

# *Ciu-citsu üzrə Bakı turniri keçirilib*

Hövsan Olimpiya İdman Kompleksində 20 Yanvar şəhidlərinin xatirəsinə yeniyetmələr və gənclər arasında ciu-citsu idman növü üzrə Bakı turniri keçirilib.

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Azərbaycan Ciu-citsu Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən yarışa 9 klubdan 150 idmançı qatılıb.

Turnirin qalibləri Baş İdarə və federasiya tərəfindən mükafatlandırılıblar.

# *Muay-tay üzrə XII Azərbaycan çempionatı təşkil olunacaq*

Fevralın 15-16-da Abşeron Olimpiya İdman Kompleksində yeniyetmələr, gənclər və böyüklər arasında muay-tay idman növü üzrə XII Azərbaycan çempionatı keçiriləcək.

Gənclər və İdman Nazirliyi və Azərbaycan Muay-tay Federasiyasının birgə təşkilatçılığı ilə keçiriləcək yarışa 200-ə yaxın idmançı qatılacaq.

Çempionatda Bakı, Gəncə, Bərdə, Mingəçevir, Quba və Salyandan klublar iştirak edəcəklər.

# Rəngli dünyanın ağ-qara oyunu

***Şahmatçılar oyunda məğlubiyyətdən sonra buraxılan səhvləri analiz edirlər. Hər bir gediş gözləri qarşısında canlanır. Əgər lövhəni və gedişləri görmürsənsə, həmin anları necə təsəvvür edə bilərsən?***



***Məsələn, lövhəyə baxmadan şahmat oynamaq mümkündür? Bəli, mümkündür və həyatda olduğu kimi oyunda da mümkün olmayan heç nə yoxdur.***

***Şahmat oyununda iki oyunçudan biri və ya hər ikisi gözübağlı oynayarsa, buna “gözübağlı şahmat” deyilir. Gözübağlı oyun şahmatçının adi şahmat oyununda qazandığı təcrübənin müqabilində baş tutur. Demək olar ki, adi şahmat oyunu da “gözübağlı şahmat” oyununu xatırladır. Belə ki, fiqurları yerindən götürməyə icazə verilmədiyindən, şahmatçı kombinasiyanı beynində qurur.***

## Şahmatın həyat mübarizəsi

Şahmatın yaranmasını tarixçilər dini mübahisələr dövrünə aid edirlər. Belə ki, bir qrup şəxs insan taleyinin müəmmalı bir qüvvə ilə idarə olunduğunu təkid edirdi. Digər qrup isə insanın qarşılaşdığı hər bir halın səbəbkarının özü olduğunu düşünürdü. Bu mübahisədən müsəlman ilahiyyatçıları da kənarda qalmayıblar. Şahmat varlığını qorumaq və xilafətdə məşhurlaşmaq üçün çətin mübarizədən keçib. Qeyd edək ki, məhz şahmat insanlara saymağı - “sıralarda hərəkət etmək” qaydasını öyrədib. Bu qayda ilə insan həyatda atdığı hər bir addımı hesablayaraq, yarana biləcək nəticələri əvvəlcədən görmək qabiliyyətinə malik olub.

> ***“Fiqurlara kömək edin ki, onlar da sizə kömək etsin”***
> ***P.Mörfi***

Din xadimləri şahmatın Tanrı tərəfindən qəbul edilmədiyini, onun lənətlənmiş bir oyun olduğunu iddia ediblər. Onlar bu oyuna qadağa qoyulması üçün müxtəlif yollara əl atıblar. Buna baxmayaraq, insanlar şahmat modeli üzərində öz problemlərini əks etdirərək, məsələlərin həllini tapmağa çalışırdılar.



VIII əsrin ərəb əlyazmalarında “bacarıqlı və hiyləgər” Səid Ben Cubeyranın adına rast gəlmək olar. O, bütün qadağalara baxmayaraq, şahmata olan sevgisini gizlədə bilmirdi. Səid kürəyini şahmat lövhəsinə çevirərək oynayırdı. Bununla da, o, Allah qarşısında az günah qazanacağını düşünürdü.

## Rekordlarla zəngin olan sirli oyun

Demək olar ki, bütün məşhur şahmatçılar “gözübağlı şahmat” oyunu ilə maraqlanıblar. Müasir şahmatın banilərindən biri olan Fransua-Andre Flidor XVIII əsrdə eyni vaxtda 3 taxtada oyun seansları keçirib. Ancaq həmin dövr üçün bu bir ilk deyildi. Belə ki, bundan iki əsr əvvəl şahmat ustadları 10 taxtada oyunlar təşkil edirdilər. Lakin Flidorun onlardan fərqi şahmatı gözübağlı şəkildə oynamağı idi. Məhz Fransua-Andre Flidor müxtəlif turnirlər təşkil edərək, “gözübağlı şahmat” oyununu məşhurlaşdırmışdı.

> ***“Şahmat yarışı zamanı qrossmeyster ova çıxmış bir pələng və eyni zamanda bir rahibdir”***
> ***A. Alyoxin***

XIX əsrdə əfsanəvi şahmatçı Pol Mörfi eyni vaxtda səkkiz gözübağlı partiya keçirib. Şahmatçı onların altısında qalib gəlib, birində heç-heçə, digərində isə məğlubiyyətə düçar olmuşdu. Pol Mörfinin bu qayda ilə oynadığı oyunları bir çox məşhur şahmatçılar sınaqdan keçiriblər. Vilhelm Steynits, Endryu Polson, Jozef Henri Blekbern bir neçə lövhədə eyni anda oynayıblar. Lakin İohan Henri Tsukertort lövhələrin sayını artıraraq, tarixdə yeniliklərlə yadda qalıb. O, eyni zamanda 16 lövhədə gücünü sınayıb.

1904-cü ildə Vladimir Ostroqskiy eyni zamanda gözübağlı 23 şəxslə oynayıb. Maraqlıdır ki, adi şahmat oyununda V.Ostroqskiy o qədər də fərqlənmirdi. Lakin “gözübağlı şahmat” oyununda o, böyük uğurlar əldə edirdi.

1919-1932 illərdə rusiyalı şahmatçı, dünya çempionu Aleksandr Alyoxin və şahmat dahisi Riçard Reti arasında güclü rəqabət hökm sürürdü. 1919-cu ildə Riçard Reti eyni zamanda 24 lövhədə gücünü sınayıb. Buna cavab olaraq Alyoxin 1924-cü ildə Nyu-Yorkda eyni zamanda 26 lövhədə oyun seansı təşkil edib. Beş il sonra Riçard Reti rekord üçün lövhələrin sayını 29-a çatdırıb.

Nəhayət, 1932-ci ildə 32 lövhədə oyun aparan Aleksandr Alyoxin bu duelin qalibi adını qazanıb. Yaşadığı vaxtlarda Alyoxinin “gözübağlı şahmat” oynaması barədə əfsanələr gəzirdi. Alyoxinin özü isə bunu sadəcə adi şahmat oyunu üçün bir hazırlıq mərhələsi kimi görürdü. Hətta işğal olunmuş Almaniyada belə o, Hitlerin zabitləri üçün seanslar təşkil edirdi. Çempion o qədər özünə güvənirdi ki, onda güllələnmə ehtimalı belə qorxu yaratmırdı.

Sinxron seansların birində Alyoxin generala bilərəkdən məğlub olur. Oyundan sonra əfsanəvi şahmatçı onu yanına çağıraraq, heç-heçə alınması üçün hansı yollardan istifadə edə biləcəyini izah edir. Təbii ki, general adi şahmatçının ona məsləhət verməsinə və özünü ondan daha ağıllı bilməsinə çox qəzəblənir. Lakin məlumatlara görə, o, sonradan Aleksandrın haqlı olduğunu qəbul edir. Qeyd etmək lazımdır ki, Aleksandr Alyoxin adi şahmatla yanaşı, “gözübağlı şahmat” oyunlarında da məğlubedilməz idi.



Maraqlısı odur ki, şahmatçının lövhəyə baxmadan qələbə qazanmağının kiçik bir sirri var idi. Belə ki, o, gedişləri elan edənin səs tonundan əvvəlki pozisiyanı xatırlamağı bacarırdı.

İkinci dünya müharibəsindən sonra “gözübağlı şahmat”ın insan sağlamlığına əks təsir göstərdiyini təsdiq edən hadisə baş verdi.

1947-ci ildə eyni vaxtda davam edən 45 lövhədə, 10 saatlıq oyundan sonra, Naydorf çox halsız olduğu üçün həkimlərə müraciət edir. Lakin buna baxmayaraq, şahmatçı məqsədinə çatdığını bildirirdi. O, yeni rekorda imza atmışdı. Belə ki, şahmatçı 45 lövhədə təşkil olunan oyundan 39 qələbə, 2 heç-heçə və 4 məğlubiyyətlə ayrılmışdı.

1960-cı ildə isə Yanoş Laslo Fleş yeni rekorda imza atır. Qrossmeyster 52 partiyadan 31-də qələbə qazanır, 18 heç-heçə edir və 3-də məğlub olur.

Harri Kasparov eyni vaxtda gözübağlı şəkildə 40 lövhədə oyun keçirdikdən sonra qəflətən vəziyyəti pisləşir. Lakin qeyd etmək lazımdır ki, müasir şahmatçılar, əsasən gözübağlı şahmatı təkbətək oynamağa üstünlük verirlər. 2011-ci il noyabrın 26-27-də Almaniyada yeni rekord qeydə alınıb. FİDE ustası Mark Lanq sutka ərzində gözübağlı 46 lövhədə oyun keçirməklə adını tarixə yazdırıb. Şahmatçının sözlərinə görə, seansdan sonra gecə öz evində ayılaraq, harada olduğunu bilməyib və beyninin cizgi film qəhrəmanlarının beyni kimi işlədiyini deyib.

2016-cı il dekabrın 3-4-də isə qrossmeyster Timur Qareev dünyaya səs salıb. Şahmatçı eyni zamanda 48 tərəf müqabili ilə mübarizə apararaq 35 qələbə, 7 heç-heçə və 6 məğlubiyyətlə tarix yazıb.

## Müasir dövrün “gözübağlı” sınağı

Gözübağlı şahmat üzrə ilk dünya çempionatı 2007-ci ildə keçirilib. İspaniyanın Bilbao şəhərində təşkil olunan turnir iki partiyadan ibarət olub.

> ***“Şahmat məhz bundan ibarətdir. Bu gün sən rəqibə dərs verirsən, sabah isə o sənə dərs verəcək”***
> ***R.Fişer***

İlk partiyadan sonra şahmatçılar fiqurlarını dəyişərək, oyuna davam edirdilər. Turnirin qaydalarına görə, heç-heçə təklif etmək olmaz, qələbəyə 3, heç-heçəyə isə 1 xal verilirdi. Çempionatda 6 şahmatçı mübarizə aparıb (qazanılan yerlərə uyğun): Syanji Bu, Sergey Karyakin, Maqnus Karlsen, Yudit Polqar, Veselin Topalov və Pentala Harikrişna.

1992-2011-ci illərdə Monte-Karlo şəhərində “Amber” turniri keçirilib. Sayca ikinci turnirdən başlayaraq yarışlarda “gözübağlı” və sürətli şahmat metodu istifadə olunurdu. Turnirdə dünyanın məşhur 12 qrossmeysteri iştirak edirdi. Turniri maliyyələşdirən niderlandlı biznesmen Yoop van Oostern dünya çempionu idi. Qeyd edək ki, o, turniri Amber adlı qızının şərəfinə belə adlandırıb.

Gözübağlı şahmat Amerika Birləşmiş Ştatlarında (ABŞ) da məşhurdur. 2013-cü il avqustun 9-11-də ABŞ-ın Pensilvaniya ştatının, Pittsburq şəhərində gözübağlı şahmat üzrə ABŞ çempionatı (“US Blind Championships”) keçirilib. Əsas mübarizə İndiana ştatından olan çempion Den Steyninq və Hyüston ştatından olan Pit Qibson arasında təşkil olunub. Üçüncü hissədə rəqiblər eyni lövhə arxasında görüşüblər. Pit Qibson ağ, Den Steyninq isə qara fiqurlarla oynayıb. Qeyd edək ki, Pit Qibson 1993-cü ildə turnirin qalibi olub.

> ***“Şahmat insan psixikası üçün təhlükəlidir. Əgər müqavimət göstərməyə daxili güc yoxdursa, bunun sonu ağılsızlıqla nəticələnə bilər. Şahmat bir tələdir. O, insandan güclüdür”***
> ***A. Karpov***

## Şahmatın lənəti, yoxsa psixoloji gərginlik?

“Gözübağlı şahmat” seansları xüsusi diqqət, emosional və əsəbi dayanıqlıq tələb edir. Bu, oyun insanın sinir sisteminə və beyninə böyük təzyiq göstərir. Bəzi insanlar şahmatçıların səhhətində yaranan problemləri şahmatın lənəti, bəziləri isə sadəcə gərginliklə əlaqələndirirdilər. Bir çox şahmatçılar oyun bitdikdən sonra halsızlıqdan şikayətlənirlər. Məsələn, San-Paulo yarışları zamanı Migel Naydorfu yüksək təzyiq narahat edirdi. Bu növdə rekord göstəricilər əldə etmək istəyən bir çox qrossmeyster erkən yaşında dünyalarını dəyişiblər. Vilhelm Steynits (Emanuel Laskerə dünya çempionatının finalında məğlub olduqdan sonra - red), Pol Çarlz Mörfi və Akiba Rubinşteyn ömrünün son günlərini ruhi xəstələr üçün dispanserdə başa vurublar. Emanuel Laskerdə də güclü psixi və fiziki tükənmə müşahidə edilib. İohan Henri Tsukertort isə Steynitsnlə keçirdiyi oyundan sonra psixoloji sarsıntı yaşayıb. O, iki il sonra - 48 yaşında dünyasını dəyişib. Məlumata görə, 40 yaşında “skarlatina” xəstəliyindən dünyasını dəyişən Riçard Reti də həmçinin psixi və fiziki tükənmə yaşayırdı. Bununla yanaşı, şahmatçının sağlığında “autizm” simptomlarını xatırladan davranışları da müşahidə olunurdu. Digər şahmatçı Aron Nimtsoviç isə həddindən artıq qıcıqlanma və apatiya ilə tarixə düşüb. O, 49 yaşında dünyasını dəyişib. Bəzi mənbələrə əsasən, bildirilir ki, Aleksandr Alyoxin psixoloji gərginlik səbəbi ilə içki aludəçiliyindən əziyyət çəkirdi. O, 53 yaşında ürək tutmasından vəfat edib.



Bəzi şahmatçılar isə psixoloji gərginliyə davam gətirə bilmədikləri üçün hətta özlərini öldürüblər. 33 yaşlı estoniyalı qrossmeyster Lembit Oll kiminsə onu izlədiyini düşünürdü. Buna görə də o, psixiatr yanında müalicə alırdı. Lakin hesab olunur ki, müalicə müsbət nəticə verməditindən, şahmatçı yaşadığı qorxu hissi ilə mübarizə apara bilməyib, pəncərədən özünü ataraq, dünyasını dəyişib. Doqquzqat Latviya çempionu Alvis Vitoliniş isə dəmiryolları körpüsündən özünü ataraq, vəfat edib.

Yazının sonunda onu da qeyd edək ki, Harri Kasparov “gözübağlı şahmat” oyununu birmənalı qarşılamırdı. Onun sözlərinə görə, seansdan sonra yaranan halsızlıq, sağlamlıq üçün çox ziyandır.

Lakin bütün bunlara baxmayaraq şahmat bəşəriyyətin ən yaxşı oyunlarından biri hesab olunur. Bu fikri bir sıra alimlər və mütəxəssislər də öz fikirləri ilə təsdiqləyiblər.

***Türkay Niftəliyeva***

## "Odlar Yurdu" komandası İsveçrədə keçirilən dünya kubokunda tamaşaçıları heyran edib

İsveçrənin Sankt-Moritz şəhərində keçirilən ənənəvi qar polosu üzrə dünya kuboku turnirinə yekun vurulub.

Azərbaycan Respublikası Atçılıq Federasiyasından verilən məlumata görə, Heydər Əliyev Fondunun dəstəyi, ARAF-ın təşkilatçılığı ilə turnirdə ölkəmizi təmsil edən "Land of Fire" komandası avropalı tamaşaçılara polonun vətəni Azərbaycanın atçılıq ənənələrini, Odlar Yurdunun füsunkar təbiətə, qədim mədəniyyətə malik olmaqla yanaşı, güclü idmançılar diyarı olmasını nümayiş etdirib.

Yanvarın 25-də Azərbaycan komandası "St. Moritz" komandası ilə qarşılaşıb. Gərgin idman mübarizəsi şəraitində keçən görüşdə yüksək qələbə əzmi nümayiş etdirən təmsilçimiz rəqib komandanın ciddi müqavimətinə baxmayaraq, qalib gələrək finala vəsiqə qazanıb.

Günün ikinci oyununda "Mazerati" komandası "Badrutt's Palace Hotel" klubuna qalib gəlib. Üçüncü yer uğrunda "Mazerati" və"Badrutt's Palace Hotel" komandaları qarşılaşıblar. Görüşdə "Mazerati" komandası rəqibindən üstün olub.

"Land of Fire" final görüşündə turnirin ən güclü komandası sayılan "St. Moritz" ilə qarşılaşıb. Maraqlı idman mübarizəsinin yaşandığı qarşılaşma rəqibin qələbəsi ilə yekunlaşıb. Beləliklə, təmsilçimiz turnirdə ikinci yeri tutub.

Final görüşündən sonra qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Eyni zamanda, turnirin ən yaxşı oyunçusu, komandası və atı nominasiyalar üzrə qaliblərə mükafatlar və hədiyyələr təqdim edilib.

Qeyd edək ki, Beynəlxalq Polo Federasiyasının təşkilatçılığı ilə polo üzrə 13-cü Avropa çempionatı sentyabrın 10-20-də Bakıda keçiriləcək.



## Gənc yazıçının "Şəhid pəhləvan" kitabı işıq üzü görüb

Gənc yazıçı, tədiqatçı, publisist, "Qızıl Qələm" media mükafatı laureatı Sevinc Ədalətqızının 1990-cı il 20 Yanvar hadisələri zamanı həlak olmuş sərbəst güləş üzrə idman ustası Müşfiq İsayevin anadan olmasının 50, şəhidlik zirvəsini fəth etməsinin 30-cu ildönümünə həsr etdiyi "Şəhid pəhləvan" kitabı işıq üzü görüb. Kitaba Müşfiq İsayev haqqında dövri mətbuatda qələmə alınmış məqalələr, ailə üzvləri və yaxınlarının - anası İzafət İsayevanın "İçimdəki bala dərdi", qardaşı, Əməkdar İdman ustası Xəzər İsayevin "Qanlı gecənin qardaş itkisi", bacıları Sevinc Hacıyevanın, "Şəhid qardaşım Müşfiqlə fəxr edirəm!", Gülşən Kərimovanın "Qardaşım Müşfiqdən heç doymadım", sinif rəhbəri, Əməkdar müəllim Şəhla Hacıbalayevanın "Müşfiq İsayev xatirələrimdən silinmir", həmkarı, Əməkdar İdman ustası Rafiq Hacıyevin "Müşfiqi ən yaxınlarımdan biri hesab edirdim" və s. adlı xatirələri daxil edilmişdir. Eyni zamanda müəllif Sevinc Ədalətqızının Müşfiq İsayev haqqında qələmə aldığı "Şəhid pəhləvanın Vətən sevgisi" adlı hekayəsi də kitabda yer almışdır. Bunlardan əlavə, kitabda Müşfiq İsayevin müxtəlif illərdə çəkdirdiyi fotoşəkillər, şəxsi arxivindən nümunələr və xatirəsinin əbədiləşdirilməsini əks etdirən sənət əsərləri də öz əksini tapmışdır.




Müəllif sözündə deyilir: "Ömrünün 21-ci payızına yenicə qədəm qoymuş gənc pəhləvan Müşfiq İsayev ömrünün 22-ci qışına Şəhid fəxri adı ilə keçdi. 1990-cı il 20 Yanvar gecəsində arzularının qan selində boğulacağını, bu dünyanın ən şərəfli adını qazanacağını bilmirdi...

Müşfiqimiz! O gecə ürəyinə tuşlanan namərd gülləsi sənə qalib gəlmədi, çünki qalib sən oldun. Adın tarixə əbədi yazılacaq igid qəhrəman kimi! Məzarın hər kəsin müqəddəs ziyarətgahına çevriləcək Vətən Şəhidi kimi! Qoy zalım fələk mənfur əməliylə öyünməsin! Hər dağını, daşını toxunulmaz və candan əziz bilən, sinəsini düşmən gülləsinə sipər edən şəhid, qəhrəman oğulları ölməz bu torpağın, Müşfiq! Sənin kimi!"

Kitabda Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayevin şəhid qardaşı ilə bağlı kövrək duyğularla qələmə aldığı xatirə yazısında qeyd olunur: "Müşfiq İsayev əvvəllər idmanın karate və güləş növləri ilə də məşğul olub. Yaxşı qaçmağı da var idi. Lenin adına respublika stadionunda (indiki Tofiq Bəhramov adına stadion) məşğul olurdu. Quru yerdən özünə dost tapardı. Arada yoldaşları deyəndə ki, odey, o, Xəzərin qardaşı Müşfiqdi... Yaman hirslənərdi. Deyirdi ki, istəmirəm məni sənə görə tanısınlar. Özüm öz adımla tanınmaq istəyirəm. Kişi kimi dediyini elədi də. Öz adıyla tanındı. İndi məni görən deyir ki, odey, Müşfiqin qardaşı o, oğlandı".

Kitabın redaktoru yazıçı, dramaturq, Əməkdar Mədəniyyət işçisi Rafiq Rəhimlidir.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

## "Masters" turnirində növbəti heç-heçə

"Gibraltar International Chess 2020" beynəlxalq şahmat festivalının "Masters" turnirinin altıncı turunun oyunları keçirilib. Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov növbəti turda hindistanlı Çopra Aryanla heç-heçə edib. Digər şahmatçımız Vasif Durarbəyli isə ispaniyalı Karlos Ibarra Jerez Joseyə məğlub olub.



Cəbəllütariqdə keçirilən beynəlxalq turnirin ötən altı turunda Ş.Məmmədyarov 4, V.Durarbəyli 3,5 xal toplayıb.

"Masters" turnirində dünyanın müxtəlif ölkələrindən 241 şahmatçı, o cümlədən 116 qrossmeyster iştirak edir.

## Şahmatçımız "Tata Steel Chess 2020" festivalında dördüncü oldu

Niderlandın Veyk-an Zee şəhərində təşkil olunan "Tata Steel Chess 2020" festivalı başa çatıb. Festivalın "Tata Steel Qualifer" turnirində mübarizə aparan Aydın Süleymanlı 5,5 xalla 4-cü yeri tutub. Turnirdə 7 xal toplayan almaniyalı Roven Vogel qalib olub.



Digər təmsilçimiz Rauf Məmmədov festivalın "Tata Steel Chalangers" turnirində 6 xalla 11-ci olub. Bu turnirin qalibi adını isə 8,5 xalla ispaniyalı David Anton Guijarro qazanıb.

Ən güclü şahmatçıların mübarizə apardıqları "Masters" yarışlarında ən yüksək nəticəni amerikalı şahmatçı Fabiano Karuana (10 xal) göstərib. On ikinci turda qələbə qazanan (9 xal) F.Karuana sona bir tur qalmış rəqibləri üçün əlçatmaz olub. Buna baxmayaraq, o, son turda rusiyalı Vladislav Artyemovu məğlub edərək aktivinə daha 1 xal əlavə edib. Yekun nəticəyə görə, ikinci yeri 8 xalla hazırkı dünya çempionu norveçli Maqnus Karlsen tutub. Üçüncü pillədə isə 7,5 xalla digər amerikalı şahmatçı Uesli So qərarlaşıb.

## Sergey Karyakin qrossmeysterimizin məsləhətçisi olacaq

Azərbaycanlı qrossmeyster Teymur Rəcəbovun iddiaçılar turnirinə hazırlığı prosesində məsləhətçisi və sparrinq-tərəfdaşı rusiyalı şahmatçı Sergey Karyakin olacaq.

Bu barədə S.Karyakin məlumat verib. Qrossmeyster ötən ilin onun üçün çox çətin keçdiyini bildirib: "İlin sonunda fiziki cəhətdən tab gətirmədim. İndi yeni mövsümdən əvvəl istirahət etmək istəyirəm. Üstəlik, qarşıdakı iddiaçılar turnirində Teymur Rəcəbova kömək edəcəyəm. Onun məsləhətçisi və sparrinq-tərəfdaşı kimi çıxış edəcəyəm".

İddiaçılar turniri martın 15-dən aprelin 5-dək Yekaterinburqda keçiriləcək. Turnirin qalibi dünya şahmat tacı uğrunda hazırkı çempion norveçli Maqnus Karlsen ilə görüşəcək.

Turnirdə T.Rəcəbovla yanaşı, rusiyalı Aleksandr Qrişuk, Yan Nepomnyaşi, Kirill Alekseenko, amerikalı Fabiano Karuana, hollandiyalı Aniş Giri, çinli Liren Dinq və Yanq Hao mübarizə aparacaqlar.

Formula 1 şirkəti 2019-cu il mövsümündə izləyiciləri ilə bağlı araşdırmasına dair hesabat açıqlayıb.

Hesabata əsasən, ötən il Formula 1-in ümumi auditoriyası 1,992 milyard nəfər təşkil edib. Bu,

### Formula 1 Çempionlar Liqası və İngiltərə Premyer Liqasını qabaqlayır

2012-ci ildən bəri ən yüksək rəqəmdir. Ondan əvvəlki - 2018-ci illə müqayisədə isə 9 faiz artım olub.

Hesabatda onlayn auditoriyanın artması baxımından Formula 1-in bütün böyük beynəlxalq yarışlar arasında birinci yeri tutduğu da bildirilir. 2019-cu ildə "Facebook", "Twitter", "İnstagram" və "Youtube"da Formula 1 abunəçilərinin sayı 2018-ci illə müqayisədə 32,9 faiz artaraq 24,9 milyon nəfər təşkil edir. Onlayn abunəçilərin artımı baxımından ikinci və üçüncü yerləri Çempionlar Liqası və İngiltərə Premyer Liqası tutur (20,1 faiz və 17,9 faiz).

### Gələn il İsrail Qran-Prisi keçiriləcəkmi?

"Williams"ın Roy Nissani ilə kontraktı çoxlarını təəccübləndirib. İsrailli pilot kiçik seriyalarda yaxşı çıxış etməyib, ötən mövsümdə isə faktiki olaraq iştirak etməyib, lakin "Start Up" şirkətindən kanadalı-israilli sponsorların dəstəyi ilə gözlənilmədən "Williams"la test-pilot kontraktı imzalayıb və 2020-ci ildə çıxış edəcəyi Formula 2-yə qayıdıb.

"Start Up" artıq 2021-ci ildə Royu komandanın əsas heyətinə qatmaq və İsrail Qran-Prisinin təşkilinə kömək etmək istəyir ki, Nissani növbəti mövsümdə öz trasında çıxış edə bilsin.

Lakin bu cəsarətli planın həyata keçməsi yolunda iki aşkar maneə var, çünki nə İsrailin "Grade 1" lisenziyalı trası var, nə də Royun superlisenziya üçün balları. Qaydalara görə, Formula 1-də çıxış etmək üçün pilot son üç ildə 40 bal toplamalıdır, halbuki Royun hesabında "World Series V8 3.5"də tutduğu dördüncü yerə görə cəmi səkkiz bal var. Öz sponsorlarının iddialı planlarını reallaşdırmaq üçün Nissani bu il Formula 2 mövsümünü azı 3-cü yerdə bitirməlidir.

### Meşə yanğınlarından zərər çəkənlərə xeyriyyə hərracı

Formula 1 şirkəti Avstraliyanın meşə yanğınlarından daha çox əziyyət çəkən rayonlarına kömək məqsədilə xeyriyyə hərracı keçirir.

Azarkeşlər xüsusi yaradılmış saytda pilotlar və komandalar tərəfindən keçirilən lotereyada iştirak edirlər. Hərracda oynanılan uduşlar arasında Kevin Maqnussenin Avstraliya Qran-Prisində çıxış edəcəyi dəbilqəsi, Daniel Rikkardonun idman ələcəkləri və ayaqqabıları, Aleks Elbon, Maks Ferstappen, Daniil Kvyat və Roman Qrojanın keçənilki idman geyimləri də olacaq.

Lotereyaya, eyni zamanda, pilot və komanda rəhbərləri ilə görüşlər, gəzintilər, Ross Braunla nahar və sair daxildir. Toplanan bütün vəsait xeyriyyə fondlarına göndəriləcək.

### Şon Bratçers Formula 1-in kommersiya direktoru vəzifəsindən gedir

Amerikalı Şon Bratçers üç il əvvəl Formula 1-in rəhbərliyi "Liberty Media"ya keçəndən sonra təyin olunduğu kommersiya direktoru vəzifəsini yanvarın sonunda tərk edəcək. O, ABŞ-a qayıdacaq və müəyyən müddət məsləhətçi kimi işləməyə davam edəcək.

Rəsmi bəyanatda deyilir: "Bratçers ailəsinə yaxın olmaq və həyatının növbəti səhifəsinə başlamaq üçün ABŞ-a qayıtmağı qərara alıb".

Şon Bratçers isə deyib: "Mən fantastik səylərə və fədakarlığa görə Formula 1-dəki həmkarlarıma təşəkkür etmək istəyirəm, onlar yaxşıların yaxşısıdırlar. Mən əminəm ki, onlar azarkeşlərin ümidlərini doğrultmağa çalışacaq və yaxın illər üçün nəzərdə tutduğumuz strategiyanı həyata keçirəcəklər.

Fəxr edirəm ki, Formula 1-i 2017-ci illə müqayisədə yaxşı vəziyyətdə qoyub gedirəm. Bilirəm ki, qoyduğumuz təməl dünyadakı azarkeşlərə xidmət edəcək və yeni auditoriya cəlb edəcək".

Formula 1-in icraçı direktoru Çeyz Keri deyib: "Şon Bratçers Formula 1-in kommersiya tərəfini yenidən qurmağa müvəffəq olub. Bunu biznesimizin inkişafı da aydın göstərir. Mən şadam ki, Şon ABŞ-da da məsləhətçi kimi işləyəcək. Onun məsləhətlərini və yardımını səbirsizliklə gözləyirəm. Mən ona gələcək təşəbbüslərində böyük nailiyyətlər arzu edərəm".

FUTBOL

# Liderlər uduzdu, iddialılar zirvəyə yaxınlaşdı

## "Barselona", "Yuventus", "Leypsiq" azarkeşlərini məyus etdi

***Yola saldığımız həftə də Avropa futbolunda hər zaman olduğu kimi maraqlı nəticələr qeydə alındı. Azarkeşlər daha çox qitənin böyük beşlik ölkələrində keçirilən qarşılaşmaları izlədilər. "Olimpiya dünyası" qəzeti qitənin aparıcı futbol çempionatlarında keçirilən görüşlərin qısa icmalını təqdim edir.***



La Liqada bu tur yadda qalan nəticələrdən biri "Barselona"nın "Mestalya"da "Valensiya"ya məğlubiyyəti oldu. Ən yaxın izləyicisi "Real"la xal fərqini qorumağa çalışan Kataloniya təmsilçisi fürsəti əldən verdi. Əvəzində Madrid klubu "Barselona"nın büdrəməsindən yararlandı. "Valyadolid"lə görüşdə minimal hesabla qələbə qazanan Zinədin Zidanın komandası zirvəyə yüksəldi. Turnir cədvəlinin zirzəmisində də mübarizə gərgin həddə çatıb. "Selta", "Leqanes" və "Espanyol" qarşıdakı turlarda qələbələri sıralamasa, gələn mövsüm Sequndada çıxış etməli olacaqlar.



### İspaniya La Liqası

**XXI tur**

Osasuna - Levante - 2:0
Espanyol - Atletik - 1:1
Valensiya - Barselona - 2:0
Alaves - Vilyarreal - 1:2
Sevilya - Qranada - 2:0
Atletiko - Leqanes - 0:0
Selta - Eybar - 0:0
Xetafe - Betis - 1:0
Real Sosyedad - Malyorka - 3:0
Valyadolid - Real - 0:1

Turnir cədvəli:

1. Real - 46 xal, 2. Barselona - 43 xal, 3. Sevilya - 38 xal, 4. Xetafe - 36 xal, 5. Atletiko - 36 xal, 6. Real Sosyedad - 34 xal...

Bundesliqa da bu həftə gərgin görüşləri ilə diqqət çəkib. Turnirin lideri olan "Leypsiq" məğlubiyyətlə üzləşib. "Ayntraxt"la qarşılaşmada komanda vahid lider olmaq şansını itirib. Bu məğlubiyyətdən daha çox "Bavariya" yararlanıb. Doğma azarkeşlər önündə "Şalke"nin qapısından 5 cavabsız top keçirən "pivəçilər" xal fərqini azalda bilib. Bu iki komandanı daban-dabana izləyən Dortmund "Borussiya"sı "Köln" komandasına böyük hesabla qalib gəlib. Qeyd edək ki, həmin matçda komandanın yeni transferi, norveçli Erlinq Haaland yenidən dubl edib. Bundesliqada aşağı pillələrdə yer alan "Verder", "Paderborn" və "Fortuna" hələ də təhlükəli zolaqdan çıxa bilmirlər.

### Almaniya Bundesliqası

**XIX tur**

Borussiya D - Köln - 5:1
Union Berlin - Auqsburq - 2:0
Borussiya M - Maynts - 3:1
Ayntraxt - Leypsiq - 2:0
Frayburq - Paderborn - 0:2
Volfsburq - Herta - 1:2
Bavariya - Şalke - 5:0
Verder - Hoffenhaym - 0:3
Bayer - Fortuna - 3:0

Turnir cədvəli:
1. Leypsiq - 40 xal, 2. Bavariya - 39 xal, 3. Borussiya M. - 38 xal, 4. Borussiya D. - 36 xal, 5. Bayer - 34 xal, 6. Şalke - 33 xal...

A seriyasının iştirakçıları da yüksək yerlər uğrunda mübarizədə ən yaxın izləyicilərini qabaqlamağa çalışıblar. Lakin turnirin lideri "Yuventus" son turlarda uğursuz çıxışı ilə yadda qalan "Napoli"nin müqavimətini qıra bilməyib. Paytaxt derbisində isə "Latsio" və "Roma" hərəyə bir xalla kifayətlənib. "Atalanta" növbəti dəfə böyük hesablı qələbəni bayram edib. "İnter" "Kalyari" ilə matçın sonlarına qədər qələbəni qoruya bilməyib. Zlatan İbrahimoviçin gəlişindən sonra dirçələn "Milan" növbəti dəfə azarkeşlərini sevindirib. Hazırda A seriyasında "Yuventus" və "İnter" liderlik uğrunda mübarizə aparırlar. Növbəti turda Turin təmsilçisi məğlubiyyətlə üzləşsə, "İnter" qələbə qazanıb, zirvəyə yüksələ bilər. Turnir cədvəlinin aşağı pillələrində yer alan 3 komanda - "Cenoa", "Breşia" və SPAL 15 xalla B seriyasına düşməyə əsas namizəddir.





### İtaliya A seriyası

**XXI tur**

Breşia - Milan - 0:1
SPAL - Bolonya - 1:3
Fiorentina - Cenoa - 0:0
Torino - Atalanta - 0:7
İnter - Kalyari - 1:1
Parma - Udineze - 2:0
Sampdoriya - Sassuolo - 0:0
Verona - Leççe - 3:0
Roma - Latsio - 1:1
Napoli - Yuventus - 2:1

Turnir cədvəli:

1. Yuventus - 51 xal, 2. İnter - 48 xal, 3. Latsio - 46 xal, 4. Roma - 39 xal, 5. Atalanta - 38 xal, 6. Milan - 31 xal...

Fransa çempionatında "PSJ fırtınası" davam edir. Tuhelin komandası bu dəfə səfərdə "Lill"i məğlubiyyətə uğradıb. "Marsel" isə "Anje" ilə görüşdə mühüm xal itkisinə məruz qalıb. "Renn" də "Nitsa" səfərindən 1 xalla ayrılıb. "Monpelye" isə doğma azarkeşlər önündə qələbə qazanaraq, turnirdəki mövqeyini yaxşılaşdırıb. Bu tur "Lion" da 3 xal əldə edib. Fransa çempionatında özünü toparlaya bilməyən "Monako" bu dəfə də azarkeşlərini məyus edib.

### Fransa Liqa 1

**XXI tur**

Nitsa - Renn - 1:1
Marsel - Anje - 0:0
Brest - Amyen - 2:1
Monako - Strasburq - 1:3
Monpelye - Dijon - 2:1
Reyms - Mets - 0:1
Sent-Etyen - Nim - 2:1
Lion - Tuluza - 3:0
Nant - Bordo - 0:1
Lill - PSJ - 0:2

Turnir cədvəli:
1. PSJ - 52 xal, 2. Marsel - 42 xal, 3. Renn - 37 xal. 4. Monpelye - 33 xal, 5. Lion - 32 xal...

### İngiltərə kuboku

Ötən həftə İngiltərə klubları kubok yarışında qüvvələrini sınayıblar. 1/16 final mərhələsində favoritlər mərhələ səddini keçə biliblər. "Mançester Siti" "Fulhem"i, "Mançester Yunayted" isə "Tranmer"i darmadağın etməklə növbəti mərhələyə yüksəlib. Səfərdə "Şrusberi Taun"la qarşılaşan "Liverpul" isə 2:2 hesablı heç-heçə edib. Yurgen Kloppun komandası növbəti mərhələyə yüksəlmək üçün bu rəqiblə təkrar oyun keçirməli olacaq. "Tottenhem" də səfərdə "Sauthempton"la sülh bağlayaraq, təkrar görüşdə rəqibi sınağa çəkəcək.

**1/16 final**

KPR - Şeffild Uensdey - 1:2 (0:1, 1:1)
Northempton - Derbi Kaunti - 0:0 (0:0, 0:0)



Hall Siti - Çelsi - 1:2 (0:1, 1:1)
Vest Hem - Vest Bromviç - 0:1 (0:1, 0:0)
Portsmut - Barnsli - 4:2 (2:0, 2:2)
Miluoll - Şeffild Yunayted - 0:2 (0:0, 0:2)
Bernli - Norviç 1:2 (0:0, 1:2)
Koventri - Birmingem 0:0 (0:0, 0:0)
Nyukasl - Oksford Yunayted - 0:0 (0:0, 0:0)
Sauthempton - Tottenhem 1:1 (0:0, 1:1)
Ridinq - Kardiff - 1:1 (1:1, 0:0)
Brentford - Lester - 0:1 (0:1, 0:0)
Bornmut - Arsenal (gec başa çatıb)
Şrusberi - Liverpul - 2:2 (0:1, 2:1)
Tranmer Rovers - Mançester Yunayted - 0:6 (0:5, 0:1)
Mançester Siti - Fulhem - 4:0 (2:0, 2:0)

# Dünya idmanı





## Nadal: “Annita çox cəsarətli qızdır!”

İspaniyalı tennisçi Rafael Nadal “Australian Open” turnirində xoşagəlməz halla üzləşib. Federiko Delbonis ilə mübarizəsi zamanı rəqibindən ötürmə alan Rafael, topu xətdən kənarda dayanan, topa nəzarət edən, qız tərəfə atıb. Bunu gözləməyən qız zərbədən canını qurtara bilməyib və top onun sifətinə dəyib. Hadisədən çox məyus olan tennisçi qıza yaxınlaşaraq üzündən öpüb və üzr istəyib. O, üzrxahlıq məqsədi ilə öz bandanasını qıza hədiyyə edib. “Bu gün onunla və ailəsi ilə görüşmək imkanım oldu. Şadam ki, mənim tennis kortunda etdiyim ehtiyatsızlıqdan sonra qız özünü yaxşı hiss edir. Annita çox cəsarətli qızdır!”, - deyə idmançı şəxsi Twitter hesabında yazıb.

Qeyd edək ki, “Australian Open” fevralın 2-də başa çatacaq.

## Ata oğlunun məğlubiyyəti ilə barışmadı

Şimali Karolinada (ABŞ) keçirilən yeniyetmələr arasında güləş turnirində qeyri-adi hadisə baş verib. Berri Cons adlı şəxs oğlunun mübarizədə məğlub olmasını qəbul edə bilməyib. Belə ki, görüşü tribunadan izləyən ata əsəblərini cilovlaya bilməyib və gözlənilmədən əyləşdiyi yerdən gələrək, zərbə ilə oğlunun rəqibini yerə yıxıb. Bildirilir ki, hadisədən sonra “qayğıkeş ata” polis bölməsinə aparılıb.

## Fəxri kürsüdə bəd xəbər

Fransalı biatlonçu Fabyen Klod Poklük şəhərində (Sloveniya) keçirilən dünya çempionatında fərdi yarışların altıncı mərhələsinin mükafatlandırılma mərasimində göz yaşlarını saxlaya bilməyib. Belə ki, yarış bitdikdən sonra ona atasının itkin düşdüyü xəbəri verilib. Bədbəxt hadisə Kanadada baş verib. Səkkiz nəfər bələdçi müşayihədsi altında donmuş göl üzərindən keçərkən, buzun sınması nəticəsində gölə düşüblər. Onlardan üçü xilas olub. Lakin Fabyenin atasının da arasında olduğu digər beş nəfər hələ də tapılmayıb.



## Basketbolun əfsanəsi helikopter qəzasında həyatla vidalaşdı

Əfsanəvi basketbolçu Kobi Brayant yanvarın 26-da Los-Ancelesin şimalında, Kolabasas şəhəri yaxınlığında helikopter qəzası nəticəsində dünyasını dəyişib. Dumanlı hava səbəbindən kiçik dağa çırpılan helikopterdə, 41 yaşlı idmançıdan əlavə 8 şəxs olub. Helikopterdə NBA-nın beşqat çempionu ilə birgə onun 13 yaşlı qızı Cinna da yer alıb. Qəzaya səbəb kimi pilotun səhvi göstərilir. Belə ki, pilot hava şərtlərinə əməl etməyib və helikopteri çox aşağı məsafədə idarə edib. Bununla bağlı pilotun səs yazısı da yayımlanıb. Səs yazısını şərh edən Filip Lesurd bildirib ki, hava çox dumanlı olub və pilot mərkəzdən edilən xəbərdarlıqlara məhəl qoymayıb.



Qeyd edək ki, Kobi Brayant NBA-da basketbol karyerasına 1996-cı ildə məktəbi bitirdikdən sonra başlayıb. O, assosiasiya tarixində “ən gənc oyunçu” olub. Brayant “Los Anceles Lakers”in tərkibində 20 mövsümdə çıxış edib. O, komanda ilə beş çempionluq titulu qazanıb. Onlardan üçünü 2000-ci illərin əvvəllərində əfsanəvi basketbolçu Şakil Onil ilə tərəfdaş və rəqib olaraq çıxış edərkən əldə edib. Qeyd edək ki, Şakil Onil K.Brayantla yaşadığı söz-söhbətə görə komandanı tərk edib.

198 sm boya sahib olan Kobi Brayant, hücumçu-müdafiəçi mövqeyində oynayırdı. Basketbolçu orta hesabla hər oyundan 25 xal qazanıb. Yanvarın 22-də 2006-cı ildə “Raptors” komandasına qarşı oyun idmançının karyerasında ən məhsuldar qarşılaşma olub. Belə ki, o, hesabına 81 xal yığaraq müasir basketbol üçün inanılmaz nəticə əldə edib.

Əfsanəvi basketbolçu iki dəfə NBA final seriyasının, bir dəfə isə müntəzəm çempionatın “ən dəyərli oyunçu”su elan olunub.

ABŞ milli komandasının tərkibində K.Brayant iki dəfə Olimpiya Oyunlarının qızıl medalını qazanıb.

İdmançı 2018-ci ildə “Əziz basketbol” adlı qısametrajlı cizgi filminə görə “Oskar” mükafatına layiq görülüb. Amerikanın “Sports Illustrated” jurnalı onu onilliyin ən yaxşı beş idmançısı sırasına daxil edib.

Kobi Brayantın faciəvi ölümü ilə bağlı bir çox idmançılar, tanınmış insanlar, siyasətçilər başsağlığı veriblər. ABŞ prezidenti Donald Tramp Brayantın helikopter qəzasında həlak olmasını dəhşətli xəbər adlandırıb. ABŞ-ın keçmiş prezidenti Barak Obama və xanımı Mişel Obama Brayantın ailəsinə başsağlığı verib, səbr diləyiblər.

“Bu faciəni heç bir sözlə ifadə etmək olmur”, - deyə Şakil Onil qeyd edib. Los-Anceles şəhərində “Leykers”komandasının çıxış etdiyi “Steplz” stadionunun qarşısında insanlar Kobi Brayantın memorialını yaradıblar.

**olimpnews.az - sizin saytınız**




“Neftçi İdman Klubu” İctimai Birliyi və Azərbaycan Cüdo Federasiyasının kollektivi iş yoldaşları

**Tofiq Gülməmmədovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

Respublika Yüksək İdman Ustalığı Məktəbinin kollektivi

**Tofiq Gülməmmədovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

“Olimpiya dünyası” qəzetinin kollektivi

**Tofiq Gülməmmədovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19